# Qəbələ sosial-iqtisadi inkişafın yeni mərhələsinə doğru irəliləyir

## Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 2016-cı ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

**Hörmətli yığıncaq iştirakçıları.**
**Xanımlar və cənablar!**

Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

İclasda möhtərəm Prezident İlham Əliyev Azərbaycanın daxili və xarici siyasəti ilə bağlı maraqlı mesajlar vermiş, dünyada davam edən böhrana, neftin qiymətinin kəskin düşməsinə, ölkəmizə qarşı olan əsassız təzyiqlərə baxmayaraq ötən doqquz ayda Azərbaycan iqtisadiyyatının inkişaf etdiyini bildirmişdir.

Cənab Prezident 2016-cı ilin ümumən dünya iqtisadiyyatı üçün çox ağır il olduğunu, böhranlı vəziyyətin davam etdiyini, hətta təbii resurslarla zəngin olan ölkələrin, eyni zamanda, istehlakçı ölkələrin də böhrandan əziyyət çəkdiyini qeyd etmişdir.

Ölkə başçısı 2016-cı ildə dünyada baş verən siyasi və hərbi böhrandan danışarkən Yaxın Şərqdə vəziyyətin kritik həddə çatdığını, müşahidə olunan qarşıdurmanın çox böyük fəlakətə gətirib çıxara biləcəyini, hadisələrin getdikcə kəskinləşdiyini diqqətə çatdırmışdır.

Cənab İlham Əliyev Avropanın miqrant böhranının da bu ilin əlaməti olduğunu və sivilizasiyalararası münasibətlərə çox böyük zərbə vurduğunu söyləmişdir.

Möhtərəm Prezident Azərbaycanın bu gün müxtəlif beynəlxalq təşkilatlarda mühüm rol oynadığını və böyük rəğbət qazandığını, Avropa ilə çox sıx əlaqələr qurduğunu, ittifaqa üzv olan 9 ölkə ilə möhkəm strateji tərəfdaşlıq əlaqələrinin olduğunu demişdir: "Biz 15 ildir ki, Avropa Şurasında çalışırıq və orada da bizim mövqelərimiz gündən-günə möhkəmlənir. Biz hətta o təşkilatda da dönüş yarada bilmişik. Avropa Şurası Parlament Assambleyasındakı deputatların əksəriyyəti artıq görür ki, bizə qarşı ədalətsizliklər, ikili standartlar olub və bu gün vəziyyət tam normaldır."

Bu il iyirmidən çox dövlət, hökumət başçısının Azərbaycanda rəsmi və işgüzar səfərlərdə olduğuna diqqət çəkən cənab İlham Əliyev ilin sonuna qədər yenə də dövlət başçılarının Azərbaycana səfərlərinin olacağını, eləcə də özünün on dörd xarici ölkəyə səfər etdiyini bildirmişdir.

İclasdakı giriş nitqində cənab Prezident son illərdə Bakıda keçirilən beynəlxalq forumları, idman oyunlarını misal çəkmiş, bu mötəbər tədbirlər arasında Roma Papası Fransiskin Azərbaycana rəsmi səfərini xüsusi qeyd etmişdir. Bu, tarixi səfərdə Roma Papasının Bakıdan bütün dünyaya çox açıq mesajlar göndərdiyini, o cümlədən Azərbaycanda multikulturalizmin vəziyyəti ilə bağlı dəyərli fikirlər söylədiyini və bu işlərə verilən qiymətin gözəl təzahürü olduğunu demişdir.

Nazirlər Kabinetinin iclasındakı nitqində ölkə başçısı Azərbaycanda vətəndaş sülhü, əmin-amanlıq, təhlükəsizlik hökm sürdüyünü, insanların rahat yaşadığını, quruculuq işləri aparıldığını, şəhərlərimizin, kəndlərimizin abadlaşdığını bildirmiş, ölkədə bütün işlərin çox yaxşı getdiyini söyləmişdir.

Sentyabr ayının 26-da ölkədə keçirilən ümumxalq səsverməsini yüzdən çox xarici müşahidəçinin izlədiyini, bir neçə beynəlxalq rəy sorğusu agentliyi tərəfindən exit-poll keçirildiyini və nəticələrin rəsmi nəticələrlə üst-üstə düşdüyünü, referendumun tam şəffaf, ədalətli keçirildiyini diqqətə çatdırmışdır.

Dövlət başçısı Azərbaycan xalqının aparılan siyasəti dəstəklədiyini, bu dəstəyə sadiq olduğunu nümayiş etdirərək konstitusiyaya təklif edilən dəyişikliklərə və əlavələrə referendumda "hə" dediyini vurğulamışdır.



Prezident Dağlıq Qarabağ münaqişəsindən danışarkən, bu ilin aprel ayında Azərbaycan ordusunun böyük hərbi qələbə əldə etiyinə toxunaraq demişdir: "Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad edib, o torpaqlarda Azərbaycan bayrağını ucaldıb. İki min hektardan çox torpaq işğalçılardan təmizləndi, ondan bir neçə dəfə böyük olan ərazi tam bizim nəzarətimizə keçdi. Biz təmas xəttində tam üstünlük əldə etmişik və bu gün düşmənin istənilən hədəfini məhv edə bilərik".

Ölkənin iqtisadi durumunu təhlil edən dövlət başçısı neftin qiymətinin düşməsi nəticəsində dövlət investisiyalarının azaldığını, tikinti sektoruna əvvəlki illərə nisbətən az sərmayə qoyulduğunu və bunun müəyyən qədər iqtisadi tənəzzülə gətirib çıxardığını qeyd etmişdir. İqtisadiyyatımızın-sənaye potensialının 0,2 %, qeyri-neft sektorunun 3,6 %, kənd təsərrüfatının 2,4 % artdığını deyən ölkə başçısı bu sahədə aparılan işlərin yaxın gələcəkdə daha da böyük nəticələr verəcəyinə əminliyini bildirmişdir.

Son doqquz ayda iş yerlərinin bağlandığına aydınlıq gətirən cənab İlham Əliyev bağlanan iş yerləri ilə əlaqədar daim təhlil aparıldığını, 36 min iş yerinin bağlandığını - 121 min daimi iş yerinin isə yaradıldığını və böhranlı il üçün bunun xüsusi bir göstərici olduğunu qeyd etmişdir.

Cənab İlham Əliyev iclasda bütün sahələrdə sosial layihələrin icra edildiyini- yeni məktəblər, səhiyyə obyektləri inşa olunduğunu, böyük yol layihələrinin, içməli su layihələrinin və infrastruktur layihələrinin bir qisminin başa çatdırıldığını, digərlərinin icrasının davam etdirildiyini bildirmişdir.

Cənab Prezident "Cənub Qaz Dəhlizi" layihəsinin də uğurla icra edildiyini, çox güclü nəqliyyat infrastrukturunun yaradıldığını, Azərbaycanın çox önəmli nəqliyyat mərkəzinə çevrildiyini, artıq uzaq məsafədən göndərilən yük konteynerlərinin Azərbaycan ərazisindən keçdiyini, bunula da ölkəmizin uzunmüddətli siyasi, iqtisadi maraqlarının təmin olunacağını bildirmişdir.

Neft qiymətlərinin kəskin ucuzlaşması ilə əlaqədar iqtisadiyyatı neft ixracatına əsaslanan Azərbaycanın ciddi sınaqlarla üzləşdiyini, manatın devalvasiyaya uğradığını, əmtəə qiymətlərinin bahalaşdığını nitqində qeyd edən ölkə başçısı 2016-cı ildə əldə olunan nəticələri bütövlükdə yaxşı hesab etmişdir.

**Hörmətli toplantı iştirakçıları!**

2016-cı ilin ötən dövrü bütün ölkədə olduğu kimi, Qəbələ rayonunun da ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında əlamətdar hadisələrlə zəngin olmuşdur. Bunlardan ən yadda qalanı isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu il avqust ayının 10-da Qəbələ rayonuna səfəri olmuşdur. Səfər zamanı dövlət başçısı bir çox mühüm sosial və iqtisadi xarakterli obyektlərin açılışında iştirak etmiş, inşaat işləri davam edən tikintilərdə işlərin gedişi ilə maraqlanmışdır. Cənab Prezident rayonumuzda görülmüş işlər barədə fikirlərini bildirərək, öz tövsiyələrini vermiş, qarşımıza yeni vəzifələr qoymuşdur.

Müstəqil Azərbaycanımızın dövlətçilik tarixində növbəti böyük siyasi hadisə olan Konstitusiyaya təklif edilən dəyişikliklər və əlavələrə dair keçirilən ümumxalq səsverməsində (referendumda) müdrik xalqımız növbəti dəfə Heydər Əliyev siyasi kursuna, inkişafa, tərəqqiyə, sabitliyə, ölkəmizin daha firavan gələcəyinə səs vermişdir.

Sentyabrın 26-da yüksək demokratik şəraitdə keçirilən səsvermədə Qəbələ seçiciləri də hər zaman olduğu kimi böyük siyasi fəallıq göstərmişlər. Rayon üzrə mövcud olan 78 səsvermə məntəqəsində 63.689 seçicidən 47.517 nəfəri (74,6 faiz) bu siyasi kampaniyada aktiv iştirak edərək, ümumxalq səsverməsinin yüksək səviyyədə keçirilməsinə öz töhvələrini vermişlər. Səsvermədə iştirak edən seçicilərin 43557 nəfəri (91,67 faiz) dəyişikliklərin və əlavələrin lehinə səs vermişdir.

2016-cı ilin ötən dövrü ərzində Qəbələyə gələn xarici ölkələrin dövlət rəsmilərinin və turistlərin sayı əhəmiyyətli dərəcədə artmış, beynəlxalq əlaqələrin qurulması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Belə ki, Fransanın Kann şəhərinin meri Devid Lisnard rayonumuza səfər etmiş, Qəbələ və Kann şəhərləri arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi və genişləndirilməsi imkanları araşdırılmışdır. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı kimi mən 15-16 iyul 2016-cı il tarixlərdə Kann şəhərinə dəvət olunaraq orada şəhər rəhbərliyilə müzakirələr aparmış, xalqlarımız arasında mövcud olan dostluğun və ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi haqqında xartiyanı imzalamışam.

Eləcə də Stavropol vilayətinin Kislovodsk kurort şəhərində "Şəhər günü" münasibətilə təşkil olunan bayram tədbirlərində iştirak etmək üçün şəhər rəhbərliyi tərəfindən Rusiya Federasiyasına dəvət olunmuşam. Səfər zamanı Qəbələ ilə Kislovodsk kurort şəhəri arasında bütün sahələrdə, o cümlədən, kənd təsərrüfatı, sənaye, mədəniyyət, turizm əlaqələrinin qurulması və qardaşlaşma barədə şəhər rəhbərliyi və mənim tərəfimdən niyyət protokolu imzalanmışdır.

Həmçinin Özbəkistanın Səmərqənd vilayət hakiminin müavinləri və Özbəkistandakı Azərbaycan diaspor təşkilatının Səmərqənd vilayəti üzrə rəhbərliyi, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir, TÜRKSOY-un baş katibi Düsen Kaseinov, Rumıniya Respublikasının Azərbaycan Respublikasındakı səfiri Daniel Kristian Çobanu, İsrail dövlətinin Azərbaycan Respublikasındakı səfiri Dan Stavin, Meksikanın Azərbaycan Respublikasındakı fövqəlada və səlahiyyətli səfiri Rodriqo Labardini, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikasındakı səlahiyyətli səfiri xanım Karol Krofts və Ukrayna Respublikası Rovno Vilayət Dövlət Administrasiyasının rəhbəri Aleksey Mulyarenko Qəbələdə səfərdə olmuşdur.

**Hörmətli tədbir iştirakçıları!**

2016-cı ilin doqquz ayı ərzində iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 116 milyon 648 min manatlıq məhsul istehsal edilmişdir. Keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı sənayedə 1 milyon 928 min manat, yaxud 12,7 %, kənd təsərrüfatında 155 min manat, yaxud 0,3 %, nəqliyyatda 41 min manat, yaxud 1,5 %, rabitədə 64 min manat, yaxud 7,7 %, ticarətdə 150 min manat, yaxud 0,6 % artmışdır. Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 1.119 manat təşkil etmişdir. Doqquz ay ərzində sənaye müəssisələrində çalışan 1.280 nəfər işçinin orta aylıq nominal əmək haqqı 327 manat olmuşdur.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 21 milyon 599 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 20 milyon 660 min manat təşkil etmişdir.

2003-cü ilin oktyabr ayından, 01 oktyabr 2016-cı ilədək 12.445-i daimi olmaqla, 14.493 yeni iş yeri açılmışdır. Cari ilin ötən dövrü ərzində açılmış yeni iş yerlərinin sayı 821 olmuşdur. Həmin iş yerlərinin hamısı daimi iş yeridir.

Qəbələ Rayon Məşğulluq Mərkəzində işaxtaran kimi qeydiyyatdan keçmiş 3.182 nəfərdən 837 nəfəri münasib işlə təmin edilmişdir. 27 nəfərə işsizlik ststusu verilmiş, 32 nəfər işsiz vətəndaşa müavinət təyin edilmişdir. Qeyri məşğul əhalidən 17 nəfər işaxtaran vətəndaş "Sahibkarlığın əsasları" peşə kursuna cəlb edilmişdir.

2016-cı ilin doqquz ayında rayonun yerli gəlirləri 9 milyon 214 min manat proqnoza qarşı 9 milyon 169 min manat (99 %), yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait 5 milyon 359 min manat, dürüstləşdirilmiş proqnoza qarşı 5 milyon 263 min manat (98 %), yerli xərcləri dürüstləşdirilmiş 14 milyon 573 min manat proqnoza qarşı 13 milyon 580 min manat (93 %) icra olunmuşdur.

(Ardı 5-ci səhifədə).